# Ürəyi sevgi ilə dolu idi

Vətən müharibəsi başlanan gün Vüqar düşmənlə üzbəüz səngərdəydi. Komandanlıq tərəfindən hərbi hissə qarşısında qoyulan döyüş tapşırığını uğurla, cəsarətlə yerinə yetirənlərdən, düşmənin canına qorxu salan igidlərimizdən biri də Vüqar İsmayılov idi.

Düşmən işğal etdiyi torpaqlarda istehkamlar tikib əlverişli yerlərdə mövqelənmişdi. Tutduğu yerləri vermək, təslim olmaq niyyətləri yox idi. Namərdcəsinə manevrlər edir, hiyləyə əl atırdılar. Qəlbi qisas hissi ilə döyünən, torpaq həsrəti ilə vuruşan "Öldü var, döndü yoxdur", - deyib savaşa girən Azərbaycan əsgəri addım-addım irəliləyirdi.

Oktyabrın 4-ü Vüqarın qulluq etdiyi bölük Suqovuşan uğrunda ölüm-dirim savaşı aparırdı. Düşmən aldadıcı manevrlər edir, ordumuzun əsgərlərini irəli buraxıb ağır artilleriya, minatanlarla zərbələr endirirdi. Belə qanlı döyüşlərin birində ömrünün 22-ci payızını yaşayan Vüqar Məhəmməd oğlu İsmayılov düşmən gülləsinə tuş gəlir.

Vüqar İsmayılov 23 noyabr 1998-ci ildə Sumqayıt şəhərində anadan olub. 2004-2015-ci illərdə Sumqayıt şəhər 28 saylı tam orta məktəbdə oxuyub. 2016-2020-ci illərdə Bakı Avrasiya Universitetinin Regionşünaslıq və iqtisadiyyat fakültəsinin Regionşünaslıq ixtisası üzrə ali təhsil alıb. 2020-ci ilin iyul ayında həqiqi hərbi xidmətə çağırılıb.

Vüqarın doğulub böyüdüyü evdəyik. Valideynləri onun otağını indi ev-muzeyi ediblər. Burada Vüqarın müxtəlif illərdə çəkdirdiyi şəkillər, şəxsi əşyaları qorunub saxlanılır. Vüqarın atası Məhəmməd İsmayılov gəlişimizin məqsədini bilib deyir:

- Oğlumu, şəhidləri unudulmağa qoymadığınız üçün minnətdaram. Övlad itkisi valideyn üçün ağır olsa da, oğlumla fəxr edirəm. Torpaq canla qorunub, qanla alınar. Vüqar çox vətənpərvər övlad idi. Hələ universitetdə oxuyarkən deyərdi ki, Qarabağ uğrunda müharibə başlasa, könüllü olaraq döyüşlərə qatılacağam. Arzusu Qarabağı azad görmək idi. 4 oktyabrda Suqovuşan uğrunda gedən döyüşlərdə şəhid olub. Təəssüf ki, o, Şuşanı, Qarabağı azad görmədi. 16 oktyabrda nəşini gətirdilər, Şəhidlər xiyabanında dəfn olundu. Oğlum günlərlə canından çox sevdiyi torpağı qucaqlayıb orada qalmışdı. Günüm Şəhidlər xiyabanında keçir. Evdə oturub bir az şəkli ilə söhbət edirəm, olmur, gedirəm Şəhidlər xiyabanına. Mən danışıram, o susur. Sanki mənə baxıb gülümsəyir...



Söhbətə anası Rəna xanım qoşulur:

- Vüqargil 3 uşaq idilər. O, ikinci övladımız idi. Dərd ortağımız, sirdaşımız, hər sözümüzü deyə biləcək bir övlad idi. Ürəyi sevgi dolu idi. Çox vətənpərvər idi. "Qarabağı düşməndən geri almasaq, bizim yaşamağa haqqımız yoxdur", - deyirdi. İndi Qarabağ var, Vüqar yoxdur. Kaşkə bugünümüzü, azad Qarabağı görə biləydi. Futbol həvəskarı idi. "Qarabağ" komandasının aşiqi idi...

Oğlumla fəxr edirəm. Müharibədəki zəfərimizlə qürur duyuram. Canını vətənə qurban verib vətənləşən, bayraqlaşan 3 min nəfərdən biri də mənim Vüqarım oldu. Qürurluyam ki, Vüqar kimi bir qəhrəmanın anasıyam.

Canını vətənə fəda etmiş Vüqar İsmayılov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.-2022.-18 oktyabr.-S.8.